43 (1349) 31 oktyabr - 6 noyabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# GƏLƏN AY COP29-A EV SAHİBLİYİ EDƏCƏK ÖLKƏMİZDƏ QURUCULUQ İŞLƏRİ GENİŞLƏNİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Bakının Nəsimi rayonunda Zərifə Əliyeva, Rixard Zorge küçələrinin və Neftçilər prospektinin əhatəsində yerləşən ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yeni salınan parkda yaradılan şəraitlə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına burada həyata keçirilən abadlıq və yenidənqurma işləri, yeni salınan parkda yaradılan şərait barədə məlumat verib.

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin göstərişinə əsasən Nəsimi rayonu ərazisində salınan yeni parkdır.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artmaqdadır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən quruculuq işlərinin daha da genişləndiyini göstərir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə də yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Yeni parkın salınması gələn ay COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.

## "BU SƏFƏR DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTLƏRİMİZİN DAHA YÜKSƏK SƏVİYYƏYƏ QALXMASI İŞİNƏ TÖHFƏDİR"

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Sahir Şamşad Mirzanı qəbul edərkən deyib.



Prezident İlham Əliyev ölkələrimizin ərazi bütövlüyü və suverenliyi məsələlərində bir-birini həmişə dəstəklədiyini və bundan sonra da dəstəklədiyini qeyd edib. Əməkdaşlığımızın, o cümlədən ticarət sahəsində əlaqələrimizin əsas istiqamətlərinin artıq müəyyənləşdirildiyini bildirən dövlətimizin başçısı deyib ki, özünün Pakistana dövlət səfəri zamanı Azərbaycanın bu ölkəyə 2 milyard ABŞ dolları məbləğində investisiya qoyuluşu imkanları barədə bəyanat verilib və bu sahədə sıx əməkdaşlıq hər iki tərəf üçün faydalı ola bilər.

Müdafiə sahəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev bir müddət əvvəl artıq Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalına daxil edilən JF-17C təyyarələrinə baxdığını məmnunluqla xatırlayaraq, onların dünya səviyyəsində ən yaxşı təyyarələrdən olduğunu deyib. Dövlətimizin başçısı bu hadisənin müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlığımızın daha da gücləndirilməsi işinə xidmət etdiyini vurğulayıb.

Ölkəmizdə gedən inkişaf proseslərinin nümunə olduğunu qeyd edən qonaq Pakistanın Azərbaycan ilə qardaşlıq əlaqələrinin qarşılıqlı inama, səmimiliyə, əməkdaşlığa, mədəni əsaslara söykəndiyini deyib. Sahir Şamşad Mirza qeyd edib ki, Kəşmir məsələsində Azərbaycan Pakistanın yanında olduğu kimi, Ermənistan məsələsində də Pakistan Azərbaycanın yanındadır.

## "AZƏRBAYCAN BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ ÇOXTƏRƏFLİLİK PRİNSİPİNİN FƏAL TƏRƏFDARIDIR"

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Kazan şəhərində XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında çıxış edərkən deyib.

Dövlətimizin başçısı dəvətə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinə təşəkkürünü bildirib. O, deyib: *"Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir.*

*Öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırırıq.*

*Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının – COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik".*




## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÖZBƏKİSTANLI HƏMKARINI TƏBRİK EDİB

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Ali Məclisinin Qanunvericilik palatasına seçkilərin uğurla keçirilməsi münasibətilə Prezident Şavkat Mirziyoyevə təbrik məktubu ünvanlayıb.



Dövlətimizin başçısı məktubunda qeyd edib:

*"Qardaş Özbəkistanın tarixində ilk dəfə olaraq qarışıq seçki sistemi üzrə keçirilmiş bu səsvermə ölkənizin demokratik dövlət quruculuğu prinsiplərinə sadiqliyini bir daha bariz şəkildə nümayiş etdirdi.*

*Səsvermənin nəticələri xalqınızın Sizin qətiyyətlə yürütdüyünüz siyasi xəttə olan inam və etimadının təzahürü, Özbəkistanın daha da inkişafı və qüdrətlənməsi istiqamətində xidmətlərinizə real dəstəyinin ifadəsidir.*

*Yeni tərkibdə fəaliyyətə başlayacaq Ali Məclisin Qanunvericilik palatasının işinə müvəffəqiyyətlər arzulayıram.*

*Fürsətdən istifadə edərək bir daha Sizə səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Özbəkistan xalqının rifahı və firavanlığı yolunda ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar və nailiyyətlər diləyirəm".*

## KAZAN ŞƏHƏRİNDƏ PREZİDENT İLHAM ƏLİYEVİN ERMƏNİSTANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞÜ OLUB

Oktyabrın 24-də Rusiya Federasiyasının Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş olub.

Görüşdə tərəflər ikitərəfli sülh gündəliyinin irəli aparılması, o cümlədən sülh sazişini, sərhədlərin delimitasiyası və demarkasiyasını, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

İki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün qədər tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.



# “Avropa Parlamentinin qara qüvvələrin əlində alətə çevrilməsi təəssüf doğurur”



“Bildiyiniz kimi, oktyabrın 24-də Avropa Parlamentində Azərbaycanı hədəf alan növbəti siyasi aksiya təşkil olunub, ölkəmizə qarşı böhtanlar, yalan və saxta məlumatlar üzərində qurulan qərəzli qətnamə qəbul edilib. Avropa Parlamentinin Azərbaycana qarşı düşmənçilik və qarayaxma kampaniyası aparan qara qüvvələrin əlində alətə çevrilməsi təəssüf doğurur”.

Bu sözləri Milli Məclisin sədri Sahibə Qafarova parlamentin oktyabrın 29-da keçirilən plenar iclasında çıxışı zamanı deyib.

*“Biz ölkəmizə qarşı irəli sürülən əsassız, cəfəng ittihamları, təhdid və tələbləri qətiyyətlə rədd edirik. Bu cür ədalətsiz və qeyri-obyektiv səbəblərin ortaya çıxması Cənubi Qafqaz regionunda tarixi ədalətin və beynəlxalq hüququn bərpası ilə barışa bilməyən qüvvələrin bəd niyyətlərini bir daha açıq göstərir. Hesab edirəm ki, Avropa Parlamenti bu qətnaməsi ilə nəinki bölgəmizdə tarixi və müasir reallıqlara qərəzli münasibət nümayiş etdirir, həm də dövlətimizin suverenliyinə və ərazi bütövlüyünə meydan oxuyur”*, - deyə Milli Məclisin sədri vurğulayıb.

# «İğdır-Naxçıvan qaz kəmərinin tikintisi yaxın günlərdə tamamlanacaq”




“Türkiyə və Azərbaycan arasında olan qardaşlıq bütün dünyaya örnəkdir, xalqlarımızın dostluq, qardaşlıq bağları lap qədimlərə söykənir. Sevincdə, kədərdə hər zaman bir birimizin yanında olmuşuq. Türkiyə-Azərbaycan münasibətləri, bu xüsusda Türkiyə-Naxçıvan əlaqələri hər keçən gün daha da genişlənir”.

Bu sözləri jurnalistlərə müsahibəsində Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya söyləyib.

O qeyd edib ki, Türkiyə və Naxçıvan arasında əlaqələrin genişlənməsi üçün mütəmadi olaraq işlər görülür: “Bildiyiniz kimi İğdır-Naxçıvan qaz kəmərinin təməli ötən ilin sentyabr ayında hər iki ölkənin Prezidenti tərəfindən atılıb. Qaz kəmərinin tikintisinin önümüzdəki günlərdə tamamlanacağı gözlənilir”.

# Ekoloji təmiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması üzrə təkliflərin icrası müzakirə olunub




Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərlik etdiyi “Fiziki infrastruktur” işçi qrupunun “Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə” altqrupunun hesabat xarakterli iclası keçirilib.

İclasda Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın katibliyinin rəhbəri Vüsal Şıxəliyev açılış nitqi ilə çıxış edib, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) İdarə Heyətinin sədri Anar Rzayev altqrup tərəfindən görülən işlər barədə məlumat verib və hesabatların hazırlandığını qeyd edib.

İclasda “Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi”nin icra vəziyyəti və bu sahədə aktual məsələlər geniş müzakirə olunub. İclas çərçivəsində altqrupa üzv olan qurumlar tərəfindən Yol Xəritəsində icraçısı olduğu tədbirlər üzrə görülən işlərə dair hesabat təqdim edilib, əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verilib. Həmçinin iclasda mülkiyyət növündən asılı olmayaraq elektrikdoldurma xidməti göstərən bütün elektrikdoldurma məntəqələrinin vahid platformaya inteqrasiyasının təmin edilməsi üzrə “Azərişıq” ASC-nin sədr müavini Ramil Yusifovun məruzəsi dinlənilib və bu istiqamətdə görüləcək işlər barədə fikir mübadiləsi aparılıb. Aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə elektrikdoldurma xidməti ilə əlaqədar tariflərə dair təkliflər müzakirə olunaraq bu sahədə növbəti addımlar müəyyən olunub.

Sonda icrası davam edən tədbirlər və qarşıda duran məsələlər müzakirə edilib.

# Cəbrayılda günəş elektrik stansiyasının tikintisi üçün ərazi müəyyənləşib

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 229,0 hektar torpaq sahəsi qoyuluş gücü ilkin mərhələdə 50 MVt olmaqla, ümumilikdə 100 MVt gücündə olan günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib.

Trend xəbər verir ki, bu barədə baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Qərara əsasən Azərbaycan Respublikasının Energetika Nazirliyinə bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası”nın tələblərinə uyğun olaraq həyata keçirməsi tapşırılıb.

Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 229,0 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

# Milli Məclisin plenar iclasında 11 məsələ müzakirə edilib



Oktyabrın 29-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclasda cari məsələlərin müzakirəsi keçirilib.

Milli Məclisin sədri Sahibə Qafarova gündəliyə 11 məsələnin daxil edildiyini, ilk 2 məsələnin beynəlxalq sənədlərin təsdiqi barədə qanun layihələri olduğunu deyib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə qanun layihəsi barədə məlumat verib.

Məsələ ilə bağlı komitə sədri Musa Quliyev bəzi qeydlərini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Növbəti məsələ - “Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə”nin təsdiq edilməsi barədə qanun layihəsini komitə sədri Səməd Seyidov təqdim edib. Diqqətə çatdırıb ki, “Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə” 2024-cü il avqustun 23-də Daşkənddə Azərbaycan və Özbəkistan prezidentləri tərəfindən imzalanıb. İyirmi dörd maddədən ibarət Müqavilə ikitərəfli əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə yüksəltmək və ona tərəflərin milli maraqlarına tam şəkildə cavab verəcək müttəfiqlik xarakterli yeni, çoxşaxəli məzmun vermək məqsədi daşıyır.

Bəzi deputatlar məsələ ilə bağlı fikirlərini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Növbəti 3 məsələ birinci oxunuşda qanun layihələri olub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsindən söhbət açıb. Bildirilib ki, layihədə alkoqollu içkilərin pərakəndə satışının minimum qiymətinin müəyyən olunmasına dair 29-1-ci maddənin əlavə edilməsi təklif olunur. Dəyişiklikdə alkoqollu içkilərin pərakəndə satışının minimum qiymətinin müəyyən edilməsi, minimum qiymətin müəyyən edilməsi məqsədilə müvafiq qaydanın təsdiqlənməsi pərakəndə satışının minimum qiyməti müəyyən edilmiş alkoqollu içkilərin həmin qiymətdən aşağı qiymətə satılmasının qadağan edilməsi ehtiva olunur.

Sənəd birinci oxunuşda qəbul olunub.

Regional məsələlər komitəsinin sədr müavini Nurlan Həsənov “Bələdiyyənin maliyyəsinin əsasları haqqında”, “Büdcə sistemi haqqında” və “Nağdsız hesablaşmalar haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) mahiyyəti barədə danışıb.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev “Hərbi xidmətkeçmə haqqında” Əsasnamədə dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsindən bəhs edib.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Digər 6 məsələ ikinci oxunuşda qanun layihələri olub. “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Hərbi vəzifə və hərbi xidmət haqqında”, “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında”, “Torpaq icarəsi haqqında” qanunlarda, Mülki Prosessual Məcəllədə və “Kredit büroları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri ətrafında aparılan müzakirələrdən sonra sənədlər səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

# ARDNF və Hassana İnvestisiya Şirkəti Anlaşma Memorandumu imzalayıb

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) Səudiyyə Ərəbistanı Krallığında investisiya imkanlarının araşdırılması məqsədilə Hassana İnvestisiya Şirkəti ilə Anlaşma Memorandumu imzalayıb. Bu memorandum müştərək investisiyaların həyata keçirilməsi imkanlarını araşdırmağa imkan yaradaraq iki qurum arasında strateji əməkdaşlığın inkişafına töhfə verəcəkdir.

Anlaşma Memorandumu, Hassana İnvestisiya Şirkətinin İcraçı direktoru Saad bin Abdulmohsen Al-Fadli və ARDNF-nin İcraçı direktoru İsrafil Məmmədov tərəfindən imzalanmışdır. İsrafil Məmmədov öz çıxışında bildirib ki, “Bu Anlaşma Memorandumu yalnız iki maliyyə qurumunun razılaşması deyil, eyni zamanda strateji investisiyalar və dayanıqlı inkişaf üçün ortaq məqsədlərə yönəlmiş tərəfdaşlığın başlanğıcıdır. Bu əməkdaşlıq ARDNF-nin “Vision 2030” strateji hədəfləri çərçivəsində əhəmiyyətli inkişaf və transformasiya dövründən keçən Səudiyyə Ərəbistanındakı investisiya strategiyası baxımından əhəmiyyətli bir mərhələdir. Biz Hassana ilə qarşılıqlı maraq doğuran layihələri müəyyən etmək və inkişaf etdirmək üçün birgə çalışmağa hazırıq”.

Saad bin Abdulmohsen Al-Fadli bu tərəfdaşlığın Hassana İnvestisiya Şirkəti üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb: *“Hər iki tərəfə Səudiyyə Ərəbistanının investisiya sektorundakı yeni imkanlardan faydalanmağa kömək edəcək bu memorandum əməkdaşlığımız, özəl səhm, daşınmaz əmlak və infrastruktur sahələrinə fokuslanaraq uzunmüddətli dəyər yaratmağı hədəfləyir.”*

# COP zonalarının təchizatında ekoloji təmiz enerji ehtiyacları 100 faiz təmin olunub




Bu barədə COP29 Əməliyyat Şirkətinin Koordinasiya Şurasının üzvü Ayan Nəcəf COP29 Azərbaycan Əməliyyat Şirkəti ilə memorandumun imzalanması mərasimində bildirib.

*“COP zonalarının (mavi və yaşıl) təchizatında ekoloji təmiz və dayanıqlı enerji ehtiyaclarını 100 faiz təmin etdik. COP zonalarının əsas hissəsi davamlı inkişaf ideyalarına və uzunmüddətli planlara həsr olunub. Buna baxmayaraq, bütün aspektlər əvvəlcədən yoxlanılmalı və əsaslandırılmalıdır. Biz başa düşürük ki, fiziki infrastruktur dayanıqlığı təmin etmək və uzunmüddətli istifadəyə uyğun olmaq üçün uyğunlaşdırılmalıdır”*, - o bildirib.

A.Nəcəf qeyd edib ki, stadionun quruluşu daimi istifadəyə uyğunlaşdırılıb və burada bütün enerji mənbələri ekoloji həllərə və hibrid təchizat modellərinə yönəldilib.

*“Biz əminik ki, dayanıqlı enerji istehlakı meyarlarına 100 faiz əməl edirik və bu yanaşmanın müxtəlif modellərini uğurla nümayiş etdirə bilərik. Bu, bizim üçün əhəmiyyətli bir addım idi. Təhlil nəticələrindən istifadə edərək praktiki həllər yarada və dayanıqlı inkişafın yeni standartlarını müəyyən edə bildik ki, bu da başqalarını bənzər addımlar atmağa ruhlandıra bilər”*, - o vurğulayıb.

# Türk dövlətlərini birləşdirən güclü siyasi-iqtisadi platforma

*(əvvəli ötən sayımızda)*




Beləliklə, 2024-cü il iyulun 5-6-da Türk dünyasının diqqəti Şuşada oldu. Regional və beynəlxalq güc mərkəzinə çevrilən TDT-yə daxil olan ölkələrin liderlərinin iştirakı ilə şəhərdə qeyri-formal zirvə görüşü keçirildi. Azərbaycan, Özbəkistan, Qırğızıstan Qazaxıstan prezidentləri - İlham Əliyev, Şavkat Mirziyoyev, Sadır Japarov, Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Şuşaya səfər etdilər.

**Zirvə görüşü mühüm qərarların qəbulu ilə başa çatdı və "tarixi sammit" kimi bütün türk dünyasının tarixinə düşəcəyi şəksizdir. Həm də ona görə "tarixidir" ki, azad olunmuş ərazilərdə keçirilən ilk ən yüksək beynəlxalq səviyyəli tədbirdir.**

TDT-yə üzv ölkələrin liderləri türk dünyasının regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu hesab edərək, həmçinin bəşəriyyət tarixində türk xalqlarının siyasi, iqtisadi və bəşəri nailiyyətlərinə əsaslanaraq, Qarabağ Bəyannaməsini imzaladılar. Bu sənəd türk xalqlarının qitə miqyasında töhfələrini, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rolunun ən yüksək dəyərini özündə əks etdirir. Şuşa müqəddəs şəhər kimi tarixi Zəfərimizin parlaq rəmzidir. Bu şəhər təkcə Azərbaycan xalqının deyil, bütün türk xalqlarının qəlbində xüsusi ehtiram və qürur, iftixar duyğularını oyadır. Şuşa görüşündən ortaya çıxan mühüm mesaj da odur ki, birgə səylərlə bütün Qarabağ gələcəkdə türk dünyasının əbədi dostluğunun həqiqi rəmzinə çevrilib. Bu baxımdan qeyri-rəsmi Zirvə görüşü türk dünyasının mənəvi bağlantısı istiqamətində mühüm hadisə kimi tarixə düşdü.

İmzalanan Qarabağ Bəyannaməsi, qəbul edilən qərarlar türk dünyasının həmrəyliyini və eyni zamanda, TDT-nin beynəlxalq nüfuzunu daha da gücləndirir.

### "Türk Dünyası-2040"

Hazırda türk dövlətləri arasında bütün sahələrdə təşkilatlanmanın səviyyəsi təqdirəlayiqdir. Bu təşkilatlanmanın zirvəsində dayanan TDT isə qlobal müstəvidə artıq nüfuzlu təşkilatlardan birinə çevrilib. 15 illik tarix də göstərir ki, TDT türk dövlətləri arasında münasibətlərin genişləndirilməsi baxımından effektiv platforma kimi özünü doğruldur, 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edən bütün Türk dünyasının qlobal nüfuzunun yüksəlməsində böyük rol oynayır. İndiyədək qarşısındakı bütün strateji vəzifələrin uğurla həyata keçirilməsinin nəticəsi olaraq TDT artıq regional siyasi və iqtisadi güc mərkəzi kimi çıxış edir. Avropa İttifaqının üzvü olan Macarıstanın müşahidəçi statusuna malik olsa belə, TDT-nin bütün tədbirlərində iştirakı da böyük əhəmiyyət kəsb edir. Bu kontekstdə Macarıstan Avropra İttifaqı ilə türk dünyası arasında körpü rolunu oynayır.

Hazırda TDT üzv və müşahidəçiləri arasında siyasətdən iqtisadiyyata, nəqliyyatdan gömrüyə, enerjidən kənd təsərrüfatına, təhsildən gənclik və idmana, rəqəmsallaşmadan ədalət və təhlükəsizliyə, mədəniyyətdən turizm və sağlamlığa qədər 30-dan artıq fərqli sahə üzrə çoxistiqamətli əməkdaşlığı həyata keçirir. TDT-nin dövlət başçılarının türk inteqrasiyasını daim inkişaf etdirmək, möhkəmləndirmək və dərinləşdirmək istiqamətində məqsədyönlü təşəbbüsləri də təqdirəlayiqdir.

**Amma bəşəriyyət bu gün elə bir dövrə gəlib çatıb ki, indi türk dövlətləri öz maraq mənafelərini layiqincə təmin etmək üçün əvvəlkindən də güclü əməkdaşlıq və həmrəylik nümayiş etdirməlidirlər və bu, tarixi zərurətdir. Çünki aşınmaya məruz qalmış beynəlxalq hüquq bu gün sadəcə güc mərkəzlərinin əlində təzyiq aləti rolu oynayır və heç bir halda digər dövlətlərin mənafelərini qorumur. Bunun nəticəsi kimi qlobal kataklizmlər beynəlxalq münasibətlər sisteminin geosiyasi reallıqlarından birinə çevrilib. Beynəlxalq hüquq isə dünyada sülhü və sabitliyi kataklizmlərdən qorumaq iqtidarında deyil.**

Yeni strateji hədəflərə doğru inamla irəliləyərək, beynəlxalq nüfuzu və geosiyasi təsir imkanları artmaqda olan türk dövlətləri də qlobal problemlər və kataklizmlər fonunda yeni çağırışlarla üz-üzədirlər. Ona görə də indi türk dünyasının birliyi, türk dövlətləri arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi xüsusilə vacibdir. Böyük məmnunluqla qeyd edilməlidir ki, TDT və hər bir türk dövləti bu reallığı düzgün qiymətləndirir. Təsadüfi deyil ki, bütün bunlar TDT-nin beynəlxalq və regional müstəvidə strateji baxışa sahib olma zərurətini ortaya qoyur. Bu baxımdan TDT-nin qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru irəliləməsi hələ 2021-ci ilin noyabrında qəbul edilən "Türk Dünyası-2040" adlı sənədinin də əsas prioritetidir. Hazırda TDT "Türk Dünyası-2040" baxışı ilə əməkdaşlıqların daha da dərinləşməsinin hədəfləndiyi yeni bir dövrə doğru irəliləməkdədir.

Bu hədəflərə çatmaq üçün isə türk dövlətlərində gərəkli olan möhkəm, tarixin dərin qatlarında kök salan təməl, milli iradə və bu iradəni gerçəkləşdirə biləcək potensial var. TDT-yə üzv ölkələrin zəngin təbii ehtiyatları, insan resursları, Avrasiyada ən önəmli, qlobal geostrateji əhəmiyyət daşıyan bir ərazidə yerləşmələri bu təşkilatın beynəlxalq münasibətlər sisteminin ən güclü aktorlarından birinə çevrilməsinə imkan verir.

### TDT üzvləri arasında iqtisadi-ticari əlaqələri genişləndirmək üçün potensial böyükdür

"Türk Dünyası-2040" həm də TDT çərçivəsində mövcud iqtisadi potensialdan istifadənin arzuolunan səviyyəyə çatmasını hədəfləyir. Qeyd edək ki, hazırda türk dövlətlərində istehsal olunan ümumi daxili məhsulun həcmi 1,5 trilyon ABŞ dollarından çoxdur. Onların dünya ilə ümumi ticarət dövriyyəsi 1,3 trilyon ABŞ dolları civarındadır. TDT çərçivəsində ticarət dövriyyəsi isə 60 milyard ABŞ dollarına yaxındır.

Düzdür, türk dövlətləri arasında ticarət dövriyyəsi ildən-ilə artır. Mövcud potensialdan effektiv istifadəni təmin etmək məqsədilə son dövrlərdə bir sıra addımlar atılıb, ticarətin asanlaşdırılmasına dair "Beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" və "Sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" sazişlər imzalanıb. Hesablamalara görə, 2023-cü ilə qədər regionda infrastrukturların yaradılmasına yatırılan investisiyalar üzv dövlətlər arasında ticarət həcmlərinin 15 faiz artmasına səbəb olub. Habelə ötən ilə qədər enerji sahəsində əməkdaşlıq sazişləri üzv dövlətlər arasında enerji ixracının 30 faiz artması ilə nəticələnib. Rəqəmsal infrastrukturun təkmilləşdirilməsi və regionda elektron ticarətin təşviqi təşəbbüsləri üzv dövlətlər arasında onlayn ticarət fəaliyyətlərinin 25 faiz artmasına gətirib çıxarıb.

**Lakin 60 milyard ABŞ dolları səviyyəsində olan ticarət dövriyyəsi mövcud potensialdan xeyli aşağıdır. Bu, onların xarici ticarət həcminin yalnız təqribən 4-5 faizini təşkil edir. Bunu daha da artırmaq üçün kifayət qədər böyük potensial və müxtəlif imkanlar var.**

Ondan başlayaq ki, türk coğrafiyasında yerin üstü kimi altı zəngindir. Türk ölkələrinin ərazisində bütün yanacaq növləri olsa da, neft və təbii qaz daha böyük üstünlüyə malikdir. Dünyanın ümumi 45 milyon kv.metrlik neftli-qazlı sahəsinin 6,6 faizi türk dünyası ölkələrinin payına düşür. Son illərdə bu ölkələrin ərazisində neft-qaz istehsalı imkanlarının daha da genişlənməsi dünya bazarında onların rolunun artmasına səbəb olmuşdur. Bu isə TDT üzvlərinin təkcə regional deyil, beynəlxalq əhəmiyyətini son dərəcə artırmaqla, onların iqtisadi inkişafını şərtləndirməklə yanaşı, ticarət dövriyyələrini də artıran amil kimi özünü göstərir. Nəinki indi gələcəkdə də neft və qaz amili türk dünyası ölkələrinin iqtisadi dirçəlişinə güclü təkan verən bir amil kimi çıxış edəcəkdir. Lakin bu ölkələrin ərazisində neft və təbii qaz ehtiyatları qeyri-bərabər paylandığından yanacaq məhsullarına olan tələbatı ödəmək üçün onların qarşılıqlı iqtisadi münasibətlərinin dərinləşdirilməsi vacib şərtdir.

«Əsrin müqaviləsi»nin həyata keçirilməsi, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası, Cənub Qaz Dəhlizinin yaradılması hələ uzun onilliklər bu ölkələrin dünya təsərrüfatında real iştirakını, qlobal və regional problemlərinin həllində onların rolunun güclənməsini təmin edəcək.

Tarix göstərir ki, güclü enerji ehtiyatları olan ölkələr həmişə təzyiqlərə məruz qalmış, mənafelərini qorumaq uğrunda imkanları daxilində mübarizə aparmışlar. Lakin həmin mübarizədə qalib gələn tərəf heç də həmişə onlar olmamışlar. Bu gün müstəqil türk dövlətləri öz sərvətlərinin sahibidirlər. Bu o deməkdir ki, həmin ölkələrin müstəqilliyinin möhkəmləndirilməsi, sosial-iqtisadi dirçəlişinin və təhlükəsizliyinin təmin edilməsi üçün neft-qaz amilindən istifadə imkanları son dərəcə artmışdır.

Türk dövlətlərinin ərazilərindən keçən nəqliyyat marşrutunun inkişaf etdirilməsi həm TDT üzvü olan ölkələrin özlərinin inkişafına, həm də onlar arasında ticarət dövriyyəsinin artırılmasına xidmət edə bilər. Qərbdən Uzaq Şərqə qədər uzanan və dünyanın 33 ölkəsini birləşdirən qədim «İpək yolu» əsasən bu dövlətlərin ərazisindən keçir. Türk dövlətlərinin prezidentləri də çıxışlarında bu nəqliyyat dəhlizin imkanlarından səmərəli istifadənin əhəmiyyətini xüsusi qeyd edirlər. Reallıq da ondan ibarətdir ki, Orta Dəhlizin əhəmiyyəti Çindən Avropaya gedən ən sürətli marşrut kimi artmaqdadır. 2040-cı ilə qədər bu dəhliz vasitəsilə tranzit yüklərin həcminin illik 500 milyard ABŞ dollarına çatacağı proqnozlaşdırılır. Bu səbəbdən TDT üzvləri bu sahəni prioritet hesab edir və külli miqdarda investisiyalar yatırırlar. Bu sahədə də aparıcı rollardan biri Azərbaycanın üzərinə düşür. Orta Dəhlizin artan çəkisini nəzərə alaraq hazırda Bakı gəmiqayırma zavodunda 6 gəmi inşa edilir. Gələn il ölkəmizin 9-cu Beynəlxalq Hava Limanı Laçında istismara veriləcək. Ələt Beynəlxalq Ticarət Limanının yükgötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək. O cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Orta Dəhlizin inkişafında və türk dövlətləri arasındakı iqtisadi əlaqələrdə rolu nəzərə alınaraq, ötürücülük qabiliyyəti hazırkı 1 milyondan 5 milyon tona çatdırılacaq və bu məqsədlə layihəyə əlavə 100 milyon dollardan çox sərmayə qoyulacaq.

2024-cü ilin iyulunda Şuşada imzalanan Qarabağ Bəyannaməsi türk dövlətləri arasında ticarət əlaqələrinin genişləndirilməsi və iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün mühüm prinsipləri özündə ehtiva edir. Bəyannamə çərçivəsində həyata keçiriləcək tədbirlər ölkələr arasında ticarət maneələrinin azaldılması, nəqliyyat və logistika infrastrukturunun təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması istiqamətində vacib addımların atılmasını nəzərdə tutur.

*(davamı gələn sayımızda)*

**Ziyad SƏMƏDZADƏ,**
**Milli Məclisin deputatı, akademik**
**Mənbə: "Azərbaycan" qəzeti,**
**5 oktyabr 2024-cü il.**

# "AzerGold" QSC-nin sikkə və külçə kolleksiyalarına tələbat artıb




"AzerGold" QSC 2024-cü ilin yanvar-sentyabr ayları ərzində qiymətli metalların pərakəndə satış bazarında fəaliyyətini uğurla davam etdirib.

Belə ki, cari ilin ilk 9 ayı ərzində QSC-nin rəsmi satış və mübadilə mərkəzində 2 582 unsiya qızıl sikkə və külçənin pərakəndə satışı həyata keçirilib. Bununla ötən ilin eyni dövrü ilə müqayisədə qızılın pərakəndə satışında 35% artıma nail olunub. Qeyd olunan dövr ərzində 70 unsiya gümüş məhsullarının da pərakəndə satışı həyata keçirilib.

Cari ilin yanvar-sentyabr aylarında qızıl və gümüş məhsullarının pərakəndə satışı nəticəsində 11.4 milyon manat gəlir əldə edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 59% artım deməkdir.

Qeyd edək ki, "AzerGold" QSC yerli qızıl və gümüş xammalından istehsal etdiyi sikkə və külçələri ilk dəfə 2019-cu ildə satışa təqdim edib. Bu günə qədər 11 677 unsiya qızıl sikkə və külçə, 595 unsiya gümüş sikkənin pərakəndə satışı nəticəsində 44.2 milyon manat məbləğində gəlir əldə edilib.

Xatırladaq ki, QSC tərəfindən Azərbaycanın müasirliyini, tarix və incəsənətini, qədim ənənələrini təbliğ edən 11 çeşiddə sikkə kolleksiyası istehsal olunub. Cari ildə Heydər Əliyev Fondunun yaradılmasının 20, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyinə həsr olunmuş, o cümlədən paytaxt Bakının ən qədim hissəsi - İçərişəhərin təsvirini özündə əks etdirən yeni qızıl sikkə kolleksiyaları ictimaiyyətə təqdim edilib.

# "AzerGold" QSC-də təhlükəsiz iş saatları 5.6 milyona yaxınlaşıb




2024-cü ilin yanvar-sentyabr ayları ərzində "AzerGold" QSC-nin fəaliyyət sahələrində dayanıqlı, təhlükəsiz iş şəraitinin təmin edilməsi məqsədilə əməyin mühafizəsi və texniki təhlükəsizlik, habelə digər əlaqəli sahələr üzrə ardıcıl və sistemli tədbirlər həyata keçirib. Nəticədə 2024-cü ilin yanvar-sentyabr ayları ərzində "AzerGold" QSC-də təhlükəsiz iş saatlarının miqdarı 918 min 41 saata, ümumilikdə fəaliyyət dövrü ərzində isə 5 milyon 553 min 988 saata çatıb.

Qeyd edək ki, Səhmdar Cəmiyyəti tərəfindən mədənlərdə və istehsalat sahəsində qanunvericiliyin tələbləri və mütərəqqi beynəlxalq təcrübə əsasında təhlükəsiz əmək şəraiti yaradılıb. Əməkdaşlar müasir tələblərə cavab verən xüsusi geyim dəsti və fərdi mühafizə vasitələri ilə təmin edilirlər. Onların həyat və sağlamlığının qorunması, iş prosesi zamanı bədbəxt hadisələrin qarşısının alınması, həmçinin sağlamlıq, təhlükəsizlik, yanğından mühafizə üzrə digər tələblərə ciddi əməl edilir.

# «AZƏR MAYA İSTEHSAL» QSC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

| | Qeyd | 31 dekabr 2023-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Əmlak və avadanlıqlar (Əsas vəsaitlər) | 7 | 1 374 005,71 | 1 618 385,49 |
| Qeyri-maddi aktivlər | 8 | 180 667,07 | 180 116,99 |
| Verilmiş borclar | | | |
| Uçota alınmış investisiyalar | 9 | 850 109,77 | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **2 404 782,54** | **1 798 502,48** |
| ***Qısamüddətli aktivlər*** | | | |
| Ehtiyatlar | 10 | 1 451 502,29 | 1 652 865,73 |
| Qısamüddətli debitor borcları | 11 | 601 452,87 | 970 870,53 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 14 | 747 007,48 | 293 050,08 |
| Digər aktivlər | 12 | 3 451 811,17 | 4 618 445,65 |
| Sair qısamüddətli aktivlər | | | |
| Gələcək dövrün xərcləri | 12 | 17 146,21 | - |
| Sair qısamüddətli maliyyə aktivləri | | | - |
| **Cəmi qısamüddətli aktivlər** | | **6 268 920,02** | **7 535 231,99** |
| **CƏMİ AKTİVLƏR** | | **8 673 702,57** | **9 333 734,47** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Nizamnamə kapitalı | 20 | 1 761 160,00 | 1 761 160,00 |
| Kapital ehtiyatları | | | |
| Hesabat dövrünün bölüşdürülməmiş xalis mənfəəti /zərəri | 30 | 406 895,71 | 518 882,17 |
| Əvvəlki illərin bölüşdürülməmiş xalis mənfəəti /zərəri | | | 127 245,20 |
| **CƏMİ KAPİTAL** | | **2 168 055,71** | **2 407 287,37** |
| **Öhdəliklər** | | | |
| Uzunmüddətli öhdəliklər | 19 | 4 749 409,00 | 5 827 509,00 |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | - | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **4 749 409,00** | **5 827 509,00** |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 16 | 1 448 779,20 | 679 047,11 |
| Qısamüddətli borclar (alınmış avanslar) | 18 | 143 737,82 | 22 762,35 |
| Qısamüdətli kreditor borcları | 18 | 95 576,03 | 235 382,93 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 17 | 68 144,81 | 161 745,71 |
| Sair qısamüdətli öhdəliklər | | | |
| **Cəmi qısa müddətli öhdəliklər** | | **1 756 237,86** | **1 098 938,10** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **6 505 646,86** | **6 926 447,10** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **8 673 702,57** | **9 333 734,47** |

**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR**

| | Qeyd | 31 dekabr 2023-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 21 | 6 857 194,52 | 6 007 935,53 |
| Satışın maya dəyəri | 25 | - 6 135 506,91 | - 5 536 972,63 |
| **Ümumi mənfəət (zərər)** | | **721 687,61** | **470 962,90** |
| Daşınmaz əmlakın icarəsindən gəlirləri | 22 | 16 243,03 | 17 762,78 |
| Kommersiya xərcləri | | | |
| İnzibati xərclər | 26 | - 184 757,36 | |
| Sair əməliyyat xərcləri | | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **553 173,28** | **488 725,68** |
| Maliyyə gəlirləri | | | |
| Maliyyə xərcləri | | | |
| Fövqəladə gəlirlər | | | |
| Fövqəladə xərclər | | | |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | | | |
| Vergidən azad olan gəlirlər | | | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 26 | - 18 481,96 | - 20 851,22 |
| Məzənnə fərqi | 21 | 20 117,66 | 180 728,25 |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **554 808,98** | **648 602,71** |
| Keçmiş illərin zərərinə silinir | | **-** | **-** |
| Mənfəət üzrə azadolmalar və güzəştlər | | | **-** |
| Vergidən azad olan gəlirlər | | **-** | **-** |
| **Vergiyə cəlb olunan mənfəət** | | **554 808,98** | **648 602,71** |
| Mənfəət vergisi xərci | 29 | - 147 913,27 | - 129 720,54 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 30 | **406 895,71** | **518 882,17** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| **Səhmdarların payı** | | **3,15** | **3,68** |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | | |
| **Bir səhmin əsas mənfəəti** | 30 | **2,31** | **2,95** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR**

| | Qeyd | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2021-ci il tarixə qalıq** | | **1 761 150,00** | **236 938,54** | **1 998 088,54** |
| 2022-ci il üzrə xalis mənfəət (zərər) | 26 | **10,00** | 518 882,17 | **518 892,17** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | **-** |
| Elan edilmiş dividendlər | | | - | **-** |
| Maddələr arasında köçürmələr | | | - 109 693,34 | **- 109 693,34** |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | | **1 761 160,00** | **646 127,37** | **2 407 287,37** |
| 2023-cü il üzrə xalis mənfəət (zərər) | 26 | | 406 895,71 | **406 895,71** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | **-** |
| Elan edilmiş dividendlər | | | | **-** |
| Maddələr arasında köçürmələr | | | - 646 127,37 | **- 646 127,37** |
| **31 dekabr 2023-cü il tarixə qalıq** | | **1 761 160,00** | **406 895,71** | **2 168 055,71** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ**

| | Qeyd | 31 dekabr 2023-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət /zərər | | 554 808,98 | 648 602,71 |
| Mənfəət vergisi üzrə xərclər | 29 | - 147 913,27 | - 129 720,54 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 26 | 270 341,33 | 336 051,37 |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | | | |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 8 | 19 384,99 | 17183,15 |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər | | | |
| Ehtiyatlar üzrə artma/azalma | 10 | 201 363,44 | - 904 921,68 |
| Debitor borcları üzrə artma/azalma | 11 | 369 417,66 | - 207 480,33 |
| Sair qısamüddətli maliyyə aktivləri üzrə artma/azalma | | | |
| Digər aktivlərdə | 12 | 1 149 488,26 | - 2 729 831,71 |
| Sair qısamüddətli aktivləri üzrə artma/azalma | | | |
| Alınmış avanslar üzrə artma/azalma | | 120 975,47 | 13 469,47 |
| Cari vergi və sosial sığortaöhdəlikləri üzrə artma/azalma | 17 | - 93 600,90 | 108 245,90 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | | | |
| Sair qısamüddətli kreditor borcları | 18 | 629 925,19 | - 48 416,81 |
| Sair uzunmüddətli öhdəliklər | 19 | - 1 078 100,00 | 3 349 100,00 |
| Maddələr arasında baş vermiş dəyişikliklər | | | |
| Mənfəət vergisi ödənilmişdir | | | |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **1 996 091,15** | **452 281,53** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | 7 | - 25 961,55 | - 106 579,19 |
| Qeyri-maddi aktivlərin alınması | 8 | - 19 935,07 | - 30 338,99 |
| Uzunmüddətli kapital qoyuluşları | | - 850 109,77 | |
| Xaric olmuş əsas vəsaitlərin qalıq dəyəri | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **- 896 006,39** | **- 136 918,18** |
| ***Məzənnə fərqi*** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına yaranan pul vəsaitlərinin xaricolmaları | | | |
| Səhm buraxılışı | 20 | - | 10,00 |
| Kapital ehtiyatlarının dəyişməsi (Bölünmə balansına əsasən Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət) | | - 646 127,37 | - 109 693,34 |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin daxilolmalar | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaric olmaları | | - | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **- 646 127,37** | **- 109 683,34** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | **453 957,39** | **205 680,01** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | 12 | **293 050,08** | **87 370,07** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 12 | **747 007,48** | **293 050,08** |
| **İl ərzində artım/azalma** | | **453 957,40** | **205 680,01** |

**SƏRBƏST AUDİTOR** **İNDEPENDENT AUDİTOR**

Azərbaycan Respublikası, AZ1130 Bakı şəhəri, Ə. Naxçıvani küç. 24A/23
VÖEN: 1005147262
Audit icazəsi: SA/387

24A/23 A. Nahchivani street AZ1130, Baku Azerbaijan
TAX ID: 1005147262
Audit License: SA/387

Phone: 070 338 6727
Phone: 050 338 6727
email: aliyev.n2012@gmail.com

**Müstəqil Auditorun Maliyyə Hesabatlarının Auditinə Dair Hesabatı**
**"AZƏR MAYA İSTEHSAL" Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyinə**

**Rəy**

Mən "AZƏR MAYA İSTEHSAL" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra - şirkət) 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam. Hesab edirəm ki, qoşma maliyyə hesabatları Şirkətın 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsinin" (IESBA) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyiləm və mən digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq Maliyyə Hesabatları Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edirəm və peşəkar inamsızlıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirirəm, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrim auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığım zaman daxili nəzarətdə aşkar etdiyim əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Şirkətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatında təsvir edirəm.

# Dünya birjalarında neft bahalaşıb

Londonun ICE ("Inter-Continental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,47 dollar artaraq 71,59 dollar olub. Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,52 dollar artaraq 67,73 dollar təşkil edib.




# Mərkəzi Gömrük Hospitalının Patomorfoloji Diaqnostika şöbəsində müayinələr yüksək dəqiqliklə həyata keçirilir









Mərkəzi Gömrük Hospitalının müasir mikroskop və histoloji avadanlıqlarla tam təchiz olunmuş Patomorfoloji Diaqnostika şöbəsində histomorfoloji, sitoloji, histokimyəvi, immunohistokimyəvi müayinələr yüksəkixtisaslı həkim-patomorfoloqlar tərəfindən həyata keçirilir.

Patomorfoloji müayinə toxuma və orqanlarda mövcud olan patoloji prosesi hüceyrə səviyyəsində müəyyən etmək üçün insan orqanizminin ətraflı öyrənilməsi üsuludur. Bu müayinələr xəstəliyin diaqnostikası, mərhələsinin müəyyən edilməsi, diferensial diaqnostika, müalicə taktikası və istiqamətinin təyini, kimyəvi dərman və radiasiya müalicəsi zamanı terapevtik effektivliyin təyin edilməsində böyük əhəmiyyət kəsb edir. Histoloji analiz üçün material vizual nəzarət altında: endoskopiya, ultrasəs, KT, MRT və ya əməliyyat zamanı biopsiyadan istifadə etməklə əldə edilir. Mədə-bağırsaq traktının endoskopik müayinəsi zamanı biopsiya standart diaqnostik prosedurdur.

Patomorfoloji diaqnostik müayinələr həm şiş/neoplastik proseslərdə, həm də qeyri-şiş iltihabi patologiyalar zamanı aparılır. Əməliyyat sırasında aparılan təcili müayinələr zamanı toxumalar Leica Frozen cihazı ilə kəsilib hazırlanır. Geniş spektrumda immunohistokimyəvi boyamalar həm manual, həm də Leica BOND Max Biosystem cihazı ilə həyata keçirilir. Materialların ümumi işlənməsində hermetik biosistemdən istifadə olunur. Patomorfoloji laboratoriyada spesimenlər Leica CM 1100 (Almaniya), Sacura ACCU-CUT (Yaponiya) mikrotomlarda kəsilir, Nikon Eclipse 50 İ mikroskoplarda vizual müayinələr aparılır. Histoloji, histokimyəvi və immunohistokimyəvi tədqiqatlarda İtaliya və Almaniya istehsalı olan reaktivlərdən istifadə edilir. Patomorfoloji Diaqnostika şöbəsinin rəisi, uzman patomorfoloq Zərifə Yusifli, patomorfoloqlar Müqabil Şıxaliyev və Emin Mirzəyev müayinələri yüksək dəqiqliklə həyata keçirirlər.

**Mərkəzi Gömrük Hospitalının PR üzrə mütəxəssisi Dilarə Zamanova**

# AzerGold" QSC və Peşə Təhsili üzrə Dövlət Agentliyi növbəti Təqaüd proqramını elan edir




"AzerGold" QSC və Peşə Təhsili üzrə Dövlət Agentliyi (PTDA) Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində sənaye və dağ-mədən istiqaməti üzrə təhsil alan tələbələr üçün 4-cü "Təqaüd proqramı" layihəsini elan edir.

Dağ-mədən sahəsində ixtisaslı kadr hazırlığına dəstək məqsədilə təsis edilən təqaüd tələbələr arasında keçiriləcək müsabiqə əsasında təqdim olunacaq. Müsabiqədə tam orta təhsil bazasından sözügedən peşə təhsili mərkəzlərinə qəbul olunan və 2024-2025-ci tədris ili üzrə "Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru", "Kimyəvi analiz laborantı" və "Dağ-mədən işləri üzrə mütəxəssis" ixtisasları üzrə təhsil alan tələbələr iştirak edə bilərlər.

Münsiflər heyəti tərəfindən aparılan qiymətləndirmə zamanı müvafiq olaraq ən yüksək nəticə göstərən 10 namizəd qalib qismində elan olunacaq. Müsabiqə qalibləri müvafiq təltifnamə ilə təltif olunacaq və 9 ay müddətində hər ay 200 AZN olmaqla, ümumilikdə 1800 AZN məbləğində təqaüd qazanacaqlar. Bundan başqa, tələbələr "AzerGold" QSC-də istehsalat təcrübəsi keçmək və gələcəkdə karyeralarını dağ-mədən sənayesində qurmaq imkanı əldə edəcəklər.

Qeyd edək ki, "AzerGold" QSC və PTDA arasında əməkdaşlığın hüquqi bazası 19 may 2020-ci il tarixində qurumlar arasında metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, qiymətli və nəcib metalların hasilatı, emalı sahələri üzrə ehtiyac duyulan peşə təhsilli ixtisaslı kadrların hazırlanması istiqamətində birgə fəaliyyətə bağlı imzalanmış Anlaşma Memorandumu təşkil edir.

"Təqaüd proqramı" layihəsi və müsabiqənin şərtləri ilə ətraflı tanış olmaq üçün "AzerGold" QSC-nin rəsmi veb-saytında "Karyera" bölməsində yaradılmış "Təqaüd proqramı" altbölməsinə daxil ola bilərsiniz. Müsabiqədə iştirak etmək üçün sözügedən altbölmədəki müraciət formasını doldurmaq tələb olunur. Müsabiqəyə 25 oktyabr 2024-cü il taruxundən start verilir. Müraciət üçün son tarix 08 noyabr 2024-cü ildir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500